| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu, adı və kreditlərin sayı** | **FIN 850 Maliyyə bazarları və maliyyə institutları,** 3KU/6ECTS |
| | **Departament** | İqtisadiyyat və Menecment |
| | **Proqram** | Magistr |
| | **Semestr** | 2025/2026-cı tədris ilin payız semestri |
| | **Müəllim** | Azər Babayev |
| | **E-mail** | azer.babayev@khazar.org |
| | **Otaq/saat** | - / 18:30-21:00 |
| **Ön şərtlər** | **FIN 830 Maliyyə menecmenti** | |
| **Tədris dili** | Azərbaycan | |
| **Məcburi/seçmə** | Məcburi | |
| **Dərsliklər və kurs materialları** | ***Əsas dərslik:***<br>Ələkbərov Ə., Məmmədov Z., Hüseynova A. "Maliyyə bazarları". Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2021<br>https://www.researchgate.net/publication/349722726_Maliyye_bazarlari-ders_vesaiti-2021_elektron_forma<br>***Əlavə dərsliklər:***<br>"Maliyyə bazarı və onun tənzimlənməsi" mövzusu üzrə təlim materialı. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi, 2018<br>Quliyev E., Qurbanzadə Ş. Maliyyə bazarlarının əlifbası. Bakı, 2017<br>Ataşov B.X. Maliyyə bazarları. "Kooperasiya" nəşriyyatı. Bakı, 2016<br>Pul və banklar. Dərslik. Bakı, 2012<br>Abbasov A.H. Qiymətli kağızlar bazarı və onlarla əməliyyatlar. Bakı 2007<br>Kərimov A.E., Babayev A.A. Qiymətli kağızlar bazarı. Bakı, 2003<br>Sadıxov M., Bədəlov H. Maliyyə resursları və maliyyə bazarı. Bakı 2003<br>Kidwell D.S., Peterson R.L., Blackwell D.W. Financial institutions, markets and money – istənilən nəşr<br>Mishkin Frederic S. The Economics of Money, Banking, and Financial Markets – istənilən nəşr<br>Кидуэлл Д.С., Петерсон Р.Л., Блэкуэлл Д.У. Финансовые институты, рынки и деньги – istənilən nəşr<br>Мишкин Ф. Экономическая теория денег, банковского дела и финансовых рынков – istənilən nəşr | |
| **Kursun təsviri** | "Maliyyə bazarları və maliyyə institutları" kursu tələbələrə müasir dünyanın maliyyə bazarları sisteminin tərkibinə aid edilən konkret bazarların rolu və təsiri, necə təşkil olunduqları, subyektləri və obyektləri, maliyyə bazarlarının və onların institusional təməlini təşkil edən maliyyə qurumlarının fəaliyyət istiqamətləri barədə biliklərin, təfəkkürün yaradılması üçün nəzərdə tutulmuşdur.<br>Bu fənn maliyyə bazarlarının təməl anlayışları və məfhumları; onların quruluşu, mahiyyət və funksional səciyyələri; kapital axınlarının təsisatları, alətləri və mexanizmləri; infrastrukturu; bazarları təhlil etməklə maliyyə aktivlərinin investisiya cəlbediciliyinin müəyyən edilməsi; milli iqtisadiyyatda maliyyə bazarlarının formalaşması; maliyyə bazarlarının dövlət tənzimlənməsinin məqsəd və vəzifələri kimi məsələlərinin öyrənilməsinə köklənib | |
| **Kursun məqsədi** | Maliyyə bazarları və maliyyə institutları sahəsində iqtisadi və analitik düşüncənin formalaşması bu kursun əsas məqsədlərindəndir. Buradan irəli gələn alt məqsədlər:<br>- maliyyə bazarlarının və maliyyə institutlarının  müasir iqtisadiyyatdakı yerinin, təyinatının açıqlanması | |

<table>
<tr><td></td><td colspan="3">- maliyyə alətlərinin əsas xüsusiyyətlərini funksional qruplaşmalarına görə açıqlanması<br>- maliyyə bazarları və maliyyə institutlarının fəaliyyət əsaslarının, məzmununun açıqlanması<br>- maliyyə bazarları və maliyyə institutlarının qarşılıqlı bağlılığının açıqlanması</td></tr>
<tr><td>Tədris öyrənmə nəticələri</td><td colspan="3">Fənnin tədrisinin nəticələrinə əsasən tələbə:<br>- maliyyə bazarları və maliyyə institutlarının əsas anlayışlarını və təriflərini bilməlidir<br>- maliyyə bazarları və maliyyə institutlarının iqtisadi proseslərə təsirini bilməlidir<br>- maliyyə bazarı iştirakçılarının qarşılıqlı əlaqəsini bilməlidir<br>- maliyyə alətlərinin xüsusiyyətləri, iqtisadi mahiyyətini və təyinatını, təsərrüfat subyektlərinin iqtisadi praktikasında istifadə imkanlarını bilməlidir<br>- maliyyə bazarları və maliyyə institutlarının fəaliyyət məsələlərinə dair mövqeyini məntiqi və savadlı şəkildə bildirməyi bacarmalıdır<br>- maliyyə bazarları və maliyyə institutlarının fəaliyyətindəki problemləri müəyyənləşdirməyi, onların həlli yollarını əsaslandırmaqı bacarmalıdır</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td colspan="2">Quiz</td><td>x</td></tr>
<tr><td colspan="2">Mühazirə</td><td>x</td></tr>
<tr><td colspan="2">Seminar / Keys təhlillər</td><td>x</td></tr>
<tr><td rowspan="6">Qiymətləndirmə</td><td>Metodlar</td><td>Tarix/son tarix</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahan</td><td>Elan ediləcək</td><td>30</td></tr>
<tr><td>Dərsə davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Dərsdə fəallıq</td><td></td><td>5</td></tr>
<tr><td>Quiz</td><td>Noyabr-Dekabr ayları</td><td>20</td></tr>
<tr><td>Final imtahan</td><td>Elan ediləcək</td><td>40</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: 25% iştirak həddini aşan tələbələrə final imtahanında iştirak etməyə icazə verilməyəcəkdir. Dərsə 15 dəqiqə gec gələn tələbələrə qayıb yazılacaq və dərsdə iştirakına icazə veriləcək<br>Aktivlik: Tələbənin müzakirələrdə iştirakına görə, eyni zamanda verilən tapşırıqlara hazırlıqlı gəldiklərinə əsasən qiymətləndirmə aparılacaq<br>Quiz: Tələbələrin əhatə olunan mövzular baxımından biliklərini qiymətləndirmək üçün 2 (iki) yazılı quiz keçiriləcəkdir. Quizlərin keçirilməsinin əsas məqsədi tələbələrin mühazirələrə diqqətini cəlb etmək və bir neçə növ nəzəri və praktiki sualların həllində tələbələrin təcrübəsini təmin etməkdir<br>Seminar / Keys təhlillər: Tələbələr maliyyə bazarlarının və institutların fəaliyyətinə dair məsələləri araşdırmalı, problemlərin mahiyyətini anlamalı, mümkün həll yollarını təklif etməli və ən yaxşısını seçməlidirlər. Dərslər zamanı tələbələrin ünsiyyət bacarıqlarını və davranışlarını başa düşmək və inkişaf etdirmək üçün fərqli hallar təhlil ediləcək</td></tr>
</table>

<table>
<tr><th colspan="4">Cədvəl</th></tr>
<tr><th>Həftə</th><th>Tarix</th><th>Mövzu</th><th>Mənbə</th></tr>
<tr><td>1</td><td></td><td>Maliyyə bazarlarının ümumi səciyyələndirilməsi</td><td>Ələkbərov və b. – Fəsil 1</td></tr>
<tr><td>2</td><td></td><td>Qiymtəli kağızların ümumi səciyyələndirilməsi</td><td>Ələkbərov və b. – Fəsil 3</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | | Kərimov, Babayev – Fəsil 1 |
| 3 | | Qiymətli kağızların sinifləri I | Ələkbərov və b. – Fəsil 3<br>Kərimov, Babayev – Fəsil 3, 4 |
| 4 | | Qiymətli kağızların sinifləri II | Ələkbərov və b. – Fəsil 3<br>Kərimov, Babayev – Fəsil 2 |
| 5 | | Maliyyə vasitəçiləri və maliyyə institutları | Ələkbərov və b. – Fəsil 1<br>Kərimov, Babayev – Fəsil 5 |
| 6 | | Mərkəzi bank və onun fəaliyyəti | Pul və banklar – Fəsil 15 |
| 7 | | Kommersiya bankları və onların fəaliyyəti | Pul və banklar – Fəsil 16 |
| 8 | | Bank olmayan maliyyə institutları | Pul və banklar – Fəsil 16 |
| 9 | | **Aralıq imtahanı** | |
| 10 | | Pul və kredit bazarları | Ələkbərov və b. – Fəsil 3, 6 |
| 11 | | Valyuta və qızıl bazarları | Ələkbərov və b. – Fəsil 7, 9 |
| 12 | | Fond bazarı. Fond birjası | Ələkbərov və b. – Fəsil 5<br>Kərimov, Babayev – Fəsil 5 |
| 13 | | Birjadankənar fond bazarı | Ələkbərov və b. – Fəsil 5<br>Kərimov, Babayev – Fəsil 5 |
| 14 | | Maliyyə bazarlarında risklər | Ələkbərov və b. – Fəsil 2 |
| 15 | | Maliyyə bazarlarının və maliyyə institutlarının tənzimlənməsi | Ələkbərov və b. – Fəsil 2 |
| | | **Final imtahanı** | |